# Makron qanmalıdır ki...

## Azərbaycan "böyük Ermənistan" əfsanəsini tarixin zibilliyinə atıb

**Hər şeyi gərək öz adı ilə çağırasan. Ona görə də etiraf etməliyik ki, Qafqazda Ermənistan dövlət olmaqdan daha çox böyük güclərin əlində bir alətdir. Bu oyuncaq rejimin məqsədi, məramı da böyük güclərin mətbəxində ərsəyə gəlir. Belə yaşamaq 2020-ci ilin sentyabrınacan onlar üçün çox asan olmuşdur.**






Artıq əsrdən yuxarıdır ki, ermənilər Qafqazı əbədi münaqişə ocağına çevirmək, burada bir neçə dövlətin maraqlarını Türkiyə ilə toqquşdurmaq üçün dəridən-qabıqdan çıxırlar. Bu sırada Makron da onlara qoşulub, erməni "savaş yallısı"nı körükləyir. Amma anlamaq lazımdır ki, indi "köhnə havada yallı gedənlər"ə çəpik çalıb alqış deyən çox olmayacaq.

Adamı yandıran bu deyil, özləri bilən məsləhətdir. Amma qıdıq verən odur ki, nə Makron hansı havanı sifariş verdiyini bilir, nə də erməni millətçiləri hansı havada və kimin üçün dingildədiklərini qanırlar. Əgər ağılları olsaydı, birillik azuqələri olmadan yüzillik savaşa qol atmazdılar. Yəqin elə fikirləşiblər ki, yenə Rusiya, Fransa və ABŞ Qafqaza girib onların əvəzinə döyüşəcək, yeni torpaqları zəbt edib Hayastana pay verəcəklər. Alınmadı.

İndisə ermənilərin "sülh çağırışları"na, bəyanatlarına fikir verin. Bir balaca ayaqlarının altında torpaq ləngərləyən kimi Parisə üz tuturlar ki, qoymayın, ay aman, türklər dədəmizə od vururlar. Bu minvalla haray-qışqırıqları, axan "timsah göz yaşları" yeri-göyü bürüyür. Əslində isə nə onların üstünə gedən var, nə də torpaqlarını əllərindən alan. Amma nə fayda... Erməni ideoloqları susmaq bilmirlər, fransızların "can-can"ı üstündə "ağı" deyirlər.

Neçə əsrdir ki, haylar beləcə zarıya-zarıya uydurma xəritələrlə "böyük Ermənistan" əfsanəsi yapırlar. Yüz illərdir ki, əllərində saxta xəritələrlə yallı gedirlər - guya dənizdən-dənizə "zırpı" dövlətləri varmış. Daha unudurlar ki, təkcə sonuncu müharibədə Qafqazdan bir neçə milyon erməni Rusiyaya, Fransaya və Amerikaya qaçıb. Sən necə "böyük Hayastan" hayındasan ki, "miatsum" deyib hayladığın haylar dabanlarına tüpürüb "vətən"lərindən qaçırlar?! Deyəsən, Makrondan savayı, ermənilərin nə istədiklərini heç özləri də bilmirlər.

Belə çıxır ki, "böyük Ermənistan" əfsanəsini və onun uğrunda vuruşmağı ermənilərə kənardan sırıyıblar. İndi də erməni ideoloqları həmin kənardakıların çaldıqları havaya bambılı kimi ortaya düşüb dingildəyirlər. Daha qanmırlar ki, bu dingildəmək erməni ideologiyasının yüzillik mahiyyətini ifşa edir.

Amma deyəsən, son vaxtlar ruhdan düşüb kiriyiblər. Qarabağdan qovulduqlarından sonra böyük dövlətin necə olduğunu başa düşüblər. İndi Makron istəyir özünü yırtsın, istəyir sinə vursun, ya da ağı deyib mərsiyə qoşsun - fərq eləmir, Azərbaycan bir daha erməni separatçılarının ayağının Qarabağ torpağına dəyəcəyinə imkan verməyəcək. Uzun illər Azərbaycan ermənilərə çox hörmət edib, hətta tarixi ərazisində dövlət yaratmalarına mane olmayıb. Bəs əvəzində nə görüb? Nankorluq və düşmənçilik. Odur ki, Makron və onun kimiləri özlərini nə qədər yırtsalar da, bizdə ermənilərə çatası bir qarış da torpaq yoxdur, əksinə, geriyə alası kifayət qədər ərazilərimiz var.

Qoy hamı bilsin, Azərbaycan üçün "böyük Ermənistan" əfsanəsi bitib. İndi bitməyən bir şey varsa, o da Makronun erməni millətçilərinə tumar çəkməkdə davam etməsidir. Öz işidir, əl özünün, baş özününkü, nə qədər istəyir tumarlasın.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 13 fevral, № 32.- S.7.